

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 noyabr 2026-cı il №82 (3084) https://mod.gov.az Qiyməti 30 qəpik

Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Vyetnam Sosialist Respublikasına rəsmi səfərə gəlib.

Hanoyun Noi Bai Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Vyetnam Sosialist Respublikasının ədliyyə naziri Hoanq Than Tunq və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Vyetnamın paytaxtı Hanoy şəhərində “İnqilab şəhidləri” abidəsini ziyarət edib.

Abidənin qarşısında fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Hanoyda Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin məqbərəsini ziyarət edib.

Məqbərənin qarşısında fəxri qarovul dəstəsi düzülüb.


Prezident İlham Əliyev Ho Şi Minin xatirəsinə ehtiramını bildirib, məqbərənin önünə əklil qoyub.

* * *

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Baş naziri Le Minh Hunq ilə görüşü olub.

Görüşdə çıxış edən Baş nazir **Le Minh Hunq** deyib:

- Vyetnama rəsmi səfəriniz münasibətilə Zati-aliləri Prezidentə və Azərbaycan Respublikasının yüksəksəviyyəli nümayəndə heyətinə Vyetnam Hökuməti adından ən səmimi təbriklərimi çatdırmaq və sizi salamlamaq mənim üçün böyük şərəfdir.



Biz hər zaman Azərbaycanda baş verən prosesləri yaxından izləmişik və Sizin rəhbərliyinizlə Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi böyük nailiyyətlər münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edirik. İqtisadi inkişafa gəlincə, bildirməliyəm ki, 1959-cu ilin iyulunda Prezident Ho Şi Minin Azərbaycana səfəri xalqlarımız arasında dostluq və əməkdaşlıq ənənəsinin təməlini qoyub.

Vyetnam Hökuməti və xalqı milli-azadlıq və milli birləşmə uğrunda mübarizəmiz dövründə Azərbaycan xalqının Vyetnama göstərdiyi dəyərli dəstək və yardıma hər zaman yüksək qiymət verib. Biz səmimi-qəlbdən ümidvarıq ki, Azərbaycan bu yeni inkişaf dövründə Vyetnama dəstəyi davam etdirəcək. 2025-ci ilin mayında Baş katib, Prezident To Lamın Azərbaycana tarixi dövlət səfəri və ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi əməkdaşlığımızın yeni zirvələrə çatması və daha əhəmiyyətli, səmərəli olması üçün bir sıra imkanlar yaratdı.

İki ölkənin hökumətləri nazirliklərə və dövlət qurumlarına liderlərimizin əldə etdiyi razılaşmaları və öhdəlikləri fəal şəkildə, yüksək səviyyədə həyata keçirmək üçün tapşırıqlar verib. Məmnunluq hissi ilə bildirirəm ki, artıq ilkin müsbət nəticə əldə olunub.

Zati-aliləri, siyasi və diplomatik əməkdaşlığa gəlincə, biz 2025-ci ilin iyulunda Hanoyda iqtisadi-ticari, elmi və texniki əməkdaşlıq üzrə Vyetnam-Azərbaycan Hökumətlərarası Komissiyanın üçüncü görüşünü, həmçinin birgə Biznes Şurasının birinci görüşünü uğurla keçirdik. Baxmayaraq ikitərəfli ticarət hələ ki, nisbətən aşağı səviyyədədir və sabit artım trayektoriyasına çatmayıb, lakin inkişafa dair ümidverici əlamətlər var.

(Ardı 2-ci səhifədə)

Yaşar Gülər: Azərbaycanla əməkdaşlıq qarşılıqlı etimad əsasında güclənir

Azərbaycan ilə hərbi əməkdaşlıq qarşılıqlı etimad prinsipi əsasında güclənir. İnanırıq ki, davamlı sülh Cənubi Qafqazda nəqliyyat və ticarət əlaqələrinə, ümumilikdə iqtisadi əməkdaşlığa da təkan verəcək.

AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyənin milli müdafiə naziri Yaşar Gülər ölkə parlamentində keçirilən büdcə müzakirələri zamanı səsləndirib.

Onun sözlərinə görə, Türkiyənin müdafiə və təhlükəsizlik siyasəti ölkənin sərhədlərindən daha geniş bir coğrafi bölgəni əhatə edir.

Nazir, Rusiya-Ukrayna müharibəsi və İran ətrafındakı gərginliyin regional və qlobal təhlükəsizliyə birbaşa təsir etdiyini qeyd edib.

Y.Gülər Türkiyənin təkcə sülh üçün vasitəçilikdə deyil, həm də böhranların yaratdığı təhdidlərin aradan qaldırılmasında əhəmiyyətli rol oynadığını qeyd edib.

Pakistan və Səudiyyə Ərəbistanı ilə imzalanan Məkkə Birgə Müdafiə Sazişinin vacibliyini vurğulayan Y.Gülər, bu sənədi regionda sülhün, sabitliyin və qarşılıqlı etimadın möhkəmləndirilməsi istiqamətində mühüm addım adlandırıb.

“Eternity-2026” təliminin iştirakçıları Zəfər Parkını ziyarət ediblər





“Eternity-2026” kompüter dəstəkli komanda-qərargah təliminin iştirakçıları Bakı şəhərində Vətən müharibəsində qazanılmış tarixi Qələbənin rəmzi olan Zəfər Parkını ziyarət ediblər.



Müdafiə Nazirliyi xəbər verir ki, gəzinti zamanı qonaqlar Azərbaycan Ordusunun 44 günlük döyüş yolu və parkın memarlıq xüsusiyyətləri ilə yaxından tanış olublar.

Bununla yanaşı, ziyarətçilərə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Kursantlar Çin Xalq Respublikasına səfər ediblər

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun kursantları Çin Xalq Respublikasında səfərdə olublar.



Milli Müdafiə Universiteti xəbər verir ki, Çin Xalq Azadlıq Ordusunun Mühəndislik Universitetinin təşkilatçılığı ilə keçirilən tədbirdə 12 ölkənin nümayəndə heyəti iştirak edib.

Kursantlarımız “Beynəlxalq sülhməramlılıq” mövzusunda brifinq təqdim edərək təcrübələrini bölüşüblər.

Təqdim etdikləri brifinqə görə fərqlənən kursantlar tədbirin sonunda təltif olunublar.





Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri





(Əvvəli 1-ci səhifədə)

Hər iki ölkənin bərpaolunan enerji - külək, Günəş enerjisi, ticarət, daşınmaz əmlak və turizm şirkətləri fəaliyyətə başlayıb. Hökumətlərimiz müdafiə, təhlükəsizlik, enerji kimi sahələrdə bütün potensial imkanlarımızı konkret nəticələrə çevirmək, xalqlarımız üçün praktiki faydaları təmin etmək məqsədilə hər zaman çiyin-çiyinə çalışır.

Zati-aliləri, indi isə Sizin fikirlərinizi eşitmək istərdim. Təşəkkür edirəm.

* * *

Sonra çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Təşəkkür edirəm. Gözəl ölkənizdə olmağa çox şadam. Mənim ölkənizə sonuncu səfərimdən 10 ildən artıq vaxt keçib və mən bir çox dəyişikliklərin şahidiyəm. Ölkənizin sosial və iqtisadi inkişafında bütün nailiyyətlər, həmçinin beynəlxalq arenada böyük uğurlarınız münasibətilə Sizi təbrik edirəm.

Qeyd etdiyiniz kimi, çox şadıq ki, münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Cənab Prezidentin keçənilki səfəri bizim əlaqələrimizin inkişafı baxımından həlledici olmuşdur. O, məni nəzakətlə ölkəsinə dəvət etdi və mən də dəvəti böyük məmnuniyyət hissi ilə qəbul etdim və bir ildən sonra ölkənizdə səfərdəyəm.

bə zamanı biz Vyetnam xalqı və Hökuməti tərəfindən eyni həmrəyliyi gördük, siz bizə güclü dəstək göstərdiniz, o cümlədən BMT Təhlükəsizlik Şurasında.

Sosial-iqtisadi sahəyə gəlincə, müsbət dinamika müşahidə edirik. Lakin əlbəttə, əldə olunan nəticələrlə kifayətlənə bilmərik. Buna baxmayaraq, Sizin qeyd etdiyiniz kimi, hazırda üzərində iş gedən çoxlu önəmli layihələrimiz var, o cümlədən enerji təhlükəsizliyi və daşınmaz əmlak sahələrində.

se-prezidenti Vo Thi An Suanın AQEM-in Bakıda keçirilən Zirvə Görüşündə iştirak etmək üçün ölkəmizə səfərini xatırladaraq, onunla apardığı müzakirələrin əhəmiyyətini qeyd edib.

Baş nazir Le Minh Hunq Azərbaycanda tezliklə Vyetnamın səfirliyinin açılacağını bildirib.

Dövlətimizin başçısı Vyetnamın bu addımını yüksək qiymətləndirib. Azərbaycanın Vyetnamda səfirliyinin uzun müddətdir fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev qeyd edib ki, diplomatik nümayəndəliklərin tam fəaliyyəti ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcək.

Baş nazir Le Minh Hunq vyetnamlı mütəxəssislərin Azərbaycanda neft sahəsində təhsil aldıqlarını xatırladıb, həmin şəxslərin bu gün də Vyetnamın inkişafında mühüm rol oynadıqlarını deyib.

Söhbət zamanı enerji sahəsində əməkdaşlığa toxunulub, xüsusilə Azərbaycanın neft məhsullarının Vyetnama və Vyetnam ərazisindən region ölkələrinə ixrac imkanları, birgə istehsal sahələri ilə bağlı məsələlər müzakirə olunub.

Baş nazir Azərbaycanın re-

Le Minh Hunq azərbaycanlı həmkarını Vyetnama rəsmi səfərə dəvət edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Hanoyda Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının sədri Çan Tan Man ilə görüşüb.

Görüşdə çıxış edən Milli Assambleyanın sədri **Çan Tan Man** deyib:

- Sosial və iqtisadi sahələrdə qazandığınız mühüm nailiyyət-

tək göstəriblər. Ötən il İsveçrədə parlament sədrlərinin toplantısında mən Milli Məclisin sədri Sahibə Qafarova ilə görüş keçirdim. Arzu edirəm ki, strateji tərəfdaşlığımıza daha çox töhfə vermək üçün iki ölkənin parlamentləri əməkdaşlığını davam etdirsin. Baş nazirimizlə keçirdiyiniz çox məhsuldar görüş münasibətilə Sizi təbrik edirəm. Bildiyimə görə, Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi və Vyetnam Sosialist Respublikasının Prezidenti To Lamın sabah Sizinlə rəsmi görüşü olacaq.

Buyurun, söz Sizindir.

* * *

Sonra çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Təşəkkür edirəm, cənab Milli Assambleyanın sədri. Əziz dostlar, qonaqpərvərliyiniz üçün təşəkkür edirəm. Sizin gözəl ölkənizi ziyarət etməyə çox şadam. Sizin də qeyd etdiyiniz kimi, Vyetnam və Azərbaycan artıq strateji tərəfdaşlardır. Bu, hökumətlərarası münasibətlərin çox yüksək səviyyəsini nümayiş etdirir.

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi və Prezidentinin ötən il Azərbaycana dövlət səfəri ilə bağlı mənim xoş xatirələrim var. O, məni ölkənizə dəvət etdi və mən yenidən buraya səfər etməyimə şadam. Mən on ildən artıq müd-





* * *

Dövlətimizin başçısı Azərbaycan-Vyetnam əlaqələrinin tarixinə toxunub. Azərbaycan Prezidenti bu xüsusda qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Vyetnama, Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin


gionda önəmli mövqeyə malik ölkə olduğunu vurğulayıb. Bu xüsusda Vyetnamın Azərbaycanın dəstəyi ilə region ölkələri ilə əməkdaşlığının inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb.

Görüşdə müdafiə sənayesi sahəsində əməkdaşlıq məsələləri-

lər Azərbaycanın regionda və dünyada nüfuzunun artmasına kömək etmişdir. Biz hər zaman Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm veririk. Məmnunluq hissi ilə qeyd edirəm ki, münasibətlərimiz bütün







Siz ikitərəfli gündəliyimizin çox önəmli məsələlərinə toxundunuz. Münasibətlərimizin tarixi boyunca ölkələrimiz arasında yüksəksəviyyəli həmrəylik və dostluq mövcud olub. Siz Vyetnam Prezidentinin 1959-cu ildə Azərbaycana səfərini qeyd etdiniz. Prezident Ho Şi Min əziz qonaq kimi qarşılanmışdı. Azərbaycan xalqı sizin müstəqillik və azadlıq uğrunda mübarizənizi, xalqınızın işğal dövründə göstərdiyi qəhrəmanlığı qətiyyətlə dəstəkləyib. 2020-ci ildə ərazimizin işğaldan azad edilməsi uğrunda müharisə Azərbaycana səfərləri ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayıb.

Beynəlxalq təşkilatlar çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətin həyata keçirildiyini deyən Prezident İlham Əliyev bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə, həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində ölkələrimiz arasında əməkdaşlığı vurğulayıb.

Prezident İlham Əliyev 2026-cı ilin oktyabrında Vyetnamın Vitnə toxunulub, Azərbaycan bazarının Vyetnam biznes nümayəndələri üçün cəlbediciliyi və onların burada iştirakda maraqlı olmaları qeyd edilib, tikinti, turizm istiqamətləri üzrə əməkdaşlıq, ölkələrimiz arasında birbaşa aviareyslərin açılması məsələləri müzakirə olunub.

Dövlətimizin başçısı Orta Dəhlizin Vyetnam şirkətlərinin region bazarlarına çıxışı üçün əlverişli imkanlar yaratdığını bildirib. Bu xüsusda Azərbaycanın Vyetnamla əməkdaşlığa hazır olduğu vurğulanıb.

sahələrdə çox yaxşı irəliləyir. Bütün səviyyələrdə nümayəndə heyətləri arasında mübadilələr aparılıb və beynəlxalq arenada səmərəli əlaqələndirmə həyata keçirilib, müdafiə və təhlükəsizlik, iqtisadiyyat və ticarət, energetika, neft və qaz sahələrində əməkdaşlığımız inkişaf edib, xalqlarımız arasında təmaslar fəallaşıb.


Parlamentlərimiz arasında əməkdaşlıq da mühüm rol oynayır. Vyetnamın Milli Assambleyası və Azərbaycanın Milli Məclisi birlikdə sıx çalışıblar və beynəlxalq forumlarda bir-birinə dəs-

dət əvvəl Vyetnamı ziyarət etmişdim və bir çox dəyişiklikləri görürəm. Ölkənizin inkişafında bütün nailiyyətlər münasibətilə Sizi təbrik etmək istəyirəm.


Bəli, düz buyursunuz, mənim cənab Baş nazirlə çox məhsuldar görüşüm oldu. Biz əsasən qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etdik. Dünyada hazırkı geosiyasi vəziyyəti nəzərə alsaq, qeyd etdiyiniz sahələr xüsusi əhəmiyyət daşıyır.

(Ardı 3-cü səhifədə)

Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri







(Əvvəli 2-ci səhifədə)

Azərbaycanın ixrac etdiyi enerji resurslarının tədarük zənciri olduqca etibarlıdır. Azərbaycan müxtəlif qitələrdə yerləşən bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Hesab edirəm ki, ikitərəfli münasibətlərimizin önəmli nailiyyətlərindən biri də bizim enerji sahəsində əməkdaşlığın davam etdirilməsi üzrə aydın baxışa və çərçivəyə malik olmağımızdır. Həmişə qeyd etdiyimiz kimi, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir.

* * *

Dövlətimizin başçısı özünün 2014-cü ildə Vyetnama səfərini məmnunluqla xatırlayıb.

Prezident İlham Əliyev ölkələrimizin parlamentləri arasında dialoqun həmişə çox müsbət və nəticəyönümlü olduğunu vurğulayaraq, Azərbaycan Milli Məclisi və Vyetnam Milli Assambleyası sədrlərinin görüşünün parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından rolunu qeyd edib.

Qoşulmama Hərəkatının parlamentlərarası platformasının Azərbaycanın təşəbbüsü ilə yaradıldığını xatırladan dövlətimizin başçısı bu xüsusda iki ölkənin parlament strukturları arasında əməkdaşlığı vurğulayıb.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında tərəfdaşlıq münasibətlərinin qurulduğunu qeyd edib.

Azərbaycanın Orta Dəhlizin həm vaxt, həm də təhlükəsizlik baxımından beynəlxalq daşımalarda mühüm tranzit marşrutu olduğunu deyən dövlətimizin başçısı bunun Vyetnam şirkətlərinə də daşımalar üçün əlverişli imkanlar yaratdığını bildirib.

Çan Tan Man ötən il Vyetnam Sosialist Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ölkəmizə səfəri və səfər çərçivəsində qəbul edilmiş "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ın önəminə toxunub.

Milli Assambleyanın sədri ölkələrimizin çoxtərəfli platformalarda yaxından əməkdaşlıq etdiyini deyərək, Vyetnamın Azərbaycanla ASEAN arasında əməkdaşlığın inkişaf etdirilməsinə töhfə verməyə hazır olduğunu deyib.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təsisatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, AQEM çərçivəsində uğurlu əməkdaşlıq etdikləri vurğulanıb.

Görüşdə ölkələrimiz arasında müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin müntəzəm səfərlərinin təşkili, iqtisadiyyat, ticarət, enerji, o cümlədən bərpaolunan enerji, insanlararası təmaslar, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

* * *

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Vyetnam Sosialist Respublikasının Vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin iki xalqın bir neçə onillik tarixi olan dostluğuna əsaslanaraq inkişaf etdiyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycanın və Vyetnamın dövlət başçılarının qarşılıqlı səfərləri müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə, ölkələrimiz arasında





siyasi etimadın güclənməsinə səbəb olub. Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən il Azərbaycana səfəri zamanı iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunmasının Azərbaycan-Vyetnam əlaqələrini yeni səviyyəyə yüksəltdiyi bildirilib.


Vyetnamın Vitse-prezidenti Vo Ti An Suan Azərbaycana səfərlərini, o cümlədən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Bakıda keçirilən Zirvə Görüşündə iştirak üçün oktyabrda Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşünü məmnunluqla xatırlayıb.

Görüşdə xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Bu xüsusda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ötən il Vyetnama səfəri zamanı Hanoy Ticarət və Turizm Kollecinə, görmə qabiliyyəti məhdud uşaqlar üçün orta məktəbə göstərilən yardımın iki xalq arasında dostluğun bariz nümunəsi olduğu vurğulanıb.

Görüşdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, qızları Leyla Əliyevaya və Arzu Əliyevaya ənənəvi Vyetnam qəhvəsinin hazırlanma üsulu nümayiş olunub.

AZƏRTAC-ın materialları əsasında

Müdafiə Nazirliyinin nümayəndə heyəti Bolqarıstana səfər edib





Azərbaycan və Bolqarıstan Müdafiə nazirlikləri arasında 2026-cı il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin İdeoloji Təminat İdarəsinin nümayəndə heyəti bu ölkənin paytaxtı Sofiya şəhərinə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər zamanı tərəflər arasında "Hərbi qulluqçuların mədəni və sosial məsələlərinin mübadiləsi, həmçinin tətil, məzuniyyət və istirahət müəssisələrinin qarşılıqlı və səmərəli istifadəsinə dair" işçi görüşü keçirilib.

Səfər çərçivəsində nümayəndə heyəti istirahət mərkəzlərinə baxış keçirib, qarşılıqlı maraq doğuran digər məsələlər haqqında müzakirələr aparılıb.

Qeyd edək ki, səfər iki ölkənin hərbi qulluqçularının sosial məsələlərinin daha da yaxşılaşdırılması, qabaqcıl təcrübənin öyrənilməsi və birgə layihələrin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Türkiyənin ilk pilotsuz qırıcı təyyarəsi "KIZILELMA" inventara daxil edilib

Türkiyənin milli imkanlarla hazırladığı ilk pilotsuz qırıcı təyyarəsi "KIZILELMA" uğurla tamamlanan qəbul sınaqlarından sonra ölkənin Hərbi Hava Qüvvələrinə təhvil verilib.

AZƏRTAC xəbər verir ki, "Baykar" şirkətinin açıqlamasına görə, qəbul sınaqlarını uğurla başa vuran ilk üç "KIZILELMA" pilotsuz qırıcı təyyarəsi artıq inventara daxil edilib. Bununla Türkiyə dünya aviasiya tarixində pilotsuz qırıcı təyyarəni inventara daxil edən ilk ölkə olub.

Layihə çərçivəsində indiyədək sınaq və təlim tədbirləri çərçivəsində ümumilikdə 600 uçuş həyata keçirilib.

2022-ci il dekabrın 14-də ilk uçuşunu reallaşdıran "KIZILELMA" 2023-cü ildə digər pilotsuz və pilotlu hərbi təyyarələrlə birgə uçuşlar həyata keçirərək mühüm nailiyyətlərə imza atıb. 2025-ci ildə isə müxtəlif sursatlarla atış sınaqlarını uğurla tamamlayıb.



Gürcüstan Müdafiə Qüvvələri komandanının ölkəmizə səfəri davam edir







Gürcüstan Müdafiə Qüvvələri komandanı general-leytenant Giorgi Matiaşvili və onu müşayiət edən nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər proqramına uyğun olaraq, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və qonaqlar Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsində olublar. Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Şahin Məmmədov nümayəndə heyətinə HDQ-nin fəaliyyəti və həyata keçirilən islahatlar barədə məlumat verib. Sonra nümayəndə heyəti HDQ-də istifadədə olan hərbi-texniki vasitələrin sərgisi ilə tanış olub, dəniz xüsusi təyinatlıları tərəfindən təqdim edilən nümayiş məşğələsini izləyib.



Görüşdə, həmçinin ölkələrin HDQ-ləri arasında əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsi sahələrində əlaqələrin inkişaf etdirilməsi barədə müzakirələr aparılıb.

Səfər çərçivəsində qonaqlar Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət ediblər.

Burada nümayəndə heyətinə MMU-da, eləcə də Hərbi liseydə təhsil sistemi və tədris prosesinin təşkili barədə ətraflı məlumat verilib, tərəfləri maraqlandıran suallar cavablandırılıb.

Liseylə tanışlıq zamanı qonaqlar Heydər Əliyev Muzeyində olublar. Burada onlara Azərbaycan Ordusu üçün peşəkar kadrların hazırlanmasında Hərbi liseylərin müstəsna rolu olduğu və bu hərbi təhsil ocağının yaradılmasında məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin dayandığı xüsusi vurğulanıb.

Görüşdən sonra general-leytenant G.Matiaşvili "Şərəf kitabı"na ürək sözlərini yazıb, göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib.



Çin Xalq Respublikasının hərbi təhsil üzrə nümayəndə heyəti MMU-nu ziyarət edib



"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası müdafiə nazirlikləri arasında 2026-cı il üçün tədbirlər Planı"na əsasən Çin Xalq Azadlıq Ordusunun Hərbi Elmlər Akademiyasının (Academy of Military Sciences - AMS) Hərbi Araşdırmalar İnstitutunun elmi işçisi, baş polkovnik Li Şuyinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, nümayəndə heyəti ilə görüşən Milli Müdafiə Universiteti (MMU) rektorunun elm və təhsil üzrə müavini general-mayor Arif Həsənov iki ölkə arasında qurulan əlaqələrin hərbi təhsil sahəsində də uğurla inkişaf etdirildiyini bildirib.

Görüşdə qonaqlara MMU və onun tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinin yaranma tarixi, təhsil sistemi, tədris prosesi, elektron qəbul qaydaları və digər mövzulara dair təqdimat nümayiş etdirilib, onları maraqlandıran suallar cavablandırılıb.



Səfər çərçivəsində qonaqlar MMU-nun Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində olublar. Onlara mərkəzin təyinatı, yaranma tarixi və vəzifələri barədə məlumatlar verilib.

Həmçinin tərəflər arasında müvafiq mövzularda geniş fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Sonda hədiyyə mübadiləsi aparılıb və xatirə fotosu çəkdirilib.

"ORDU" klubu CEV Çelenc Kubokunda növbəti mərhələyə yüksəlib







Kişi voleybolçulardan ibarət "ORDU" komandası CEV Çelenc Kubokunun 1/32 final mərhələsinin cavab oyununda Norveçin "FORDE VBK" klubunu 3:0 hesabı ilə məğlub edib.


Müdafiə Nazirliyi xəbər verir ki, Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində keçirilən qarşılaşmada komandamız bütün setlərdə 25:18 hesabı ilə qalib gəlib.

Norveçdə keçirilən ilk görüşdə 3:0 hesablı qələbə qazanan "Ordu" klubu iki oyunun nəticəsinə əsasən rəqibini mübarizədən kənarlaşdıraraq turnirin 1/16 final mərhələsinə yüksəlib.

Komandamızın bu mərhələdəki rəqibi Niderlandın "SIMPLEX SSS BARNEVELD" klubu olacaq.

Polşa Respublikasının hərbi təhsil üzrə nümayəndə heyəti ölkəmizə səfər edib





Polşa Respublikası Milli Müdafiə Nazirliyinin Hərbi Təhsil Departamentinin rəisi briqada generalı Valdemar Qolebovskinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyətinin Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülovla görüşü keçirilib. Görüşdə Azərbaycanın hərbi təhsil sistemində həyata keçirilən islahatlar, tədris prosesinin təşkili, hərbi təhsil sahəsində əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsi məsələləri müzakirə olunub.

Səfər proqramına uyğun olaraq, polşalı qonaqlar MMU-nun tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitut və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də olublar. Təhsil müəssisələrində yaradılmış tədris və xidmət şəraiti ilə tanış olan nümayəndə heyətinə hərbi kadr hazırlığı istiqamətində görülən işlər barədə məlumat verilib.


Sonda nümayəndə heyətinin rəhbəri Hərbi Liseyin "Şərəf kitabı"na ürək sözlərini yazıb. Tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, səfər ölkələrimiz arasında hərbi təhsil sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və peşəkar kadr hazırlığı istiqamətində əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.





"Eternity-2026" təlimi uğurla davam edir


Ölkəmizdə keçirilən "Eternity-2026" kompüter dəstəkli birgə komanda-qərargah təlimi uğurla davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, ssenariyə uyğun olaraq, Azərbaycan, Türkiyə və Gürcüstan nümayəndələrindən ibarət birgə qərargahda bölgədən keçən strateji iqtisadi layihələrin və regional enerji-kommunikasiya xətlərinin mühafizəsi üzrə əməliyyatlar planlaşdırılır.

Müasir kompüter simulyasiya sistemləri vasitəsilə mümkün təhdidlər təhlil olunur, böhran vəziyyətlərində qərarlar qəbul edilir, eləcə də qoşun növləri və aidiyyəti dövlət qurumları arasında qarşılıqlı fəaliyyət təşkil olunur.

Təlim poliqonunda isə iştirakçılar əməliyyat rayonunun təcrid olunması, PUA-larla nəzarət, eləcə də partlayıcı qurğuların və naməlum dronların zərərsizləşdirilməsi üzrə fəaliyyətləri yerinə yetirirlər.

Bundan əlavə, hərbi bazaya basqının dəf edilməsi, dəmir yolu xətlərinin və neft-qaz infrastrukturunun təxribatlardan qorunması, yanğınların söndürülməsi və yaralıların təxliyəsi tapşırıqları uğurla icra olunur.

Qeyd edək ki, təlim iştirakçılar arasında birgə planlaşdırma və idarəetmə vərdişlərini təkmilləşdirmək məqsədi daşıyır.

* * *

"Eternity-2026" kompüter dəstəkli birgə komanda-qərargah təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak etmək məqsədilə Gürcüstan Müdafiə Qüvvələri komandanının müavini general-mayor İrakli Çiçinadzenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində qonaqlarla görüşən general-leytenant Azər Əliyev Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndələrinin iştirakı ilə keçirilən təlimin regional təhlükəsizlik və hərbi əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Səmimi qəbula və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən general-mayor İ.Çiçinadze təlimin peşəkarlıqla təşkil olunduğunu diqqətə çatdırıb, bu cür birgə fəaliyyətlərin ordularımız arasında təcrübə mübadiləsinin genişləndirilməsinə mühüm töhfə verdiyini qeyd edib.

Tərəflər, həmçinin bölgədəki strateji və iqtisadi layihələrin etibarlı mühafizəsinin təşkili, eləcə də qərargahlar arasında operativ əlaqələndirmə məsələlərini müzakirə ediblər.

Sonra nümayəndə heyətinə "Eternity-2026" təliminin məqsədi, mərhələləri və təşkilati işlərlə bağlı görülən tədbirlər barədə ətraflı məlumat verilib.

Sonda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.





20 Noyabr - Ağdam Şəhəri Günü

Ağdam: sükutdan oyanan şəhərdə canlanan həyat

İnsan doğulduğu yeri seçə bilməsə də, bəzən doğulduğu yer onun bütün ömrü boyu daşıdığı ən böyük bağlılığa çevrilir. Ağdam mənim üçün məhz belə bir şəhərdir. Mən Ağdamda doğulmuşam, amma orada böyüməmişəm. Uşaqlıqda hansısa küçəsində qaçmamışam. Həyətində oynamamışam, məktəb yolunu yaddaşıma həkk etməmişəm. Şəhərin səhərini pəncərədən izləməmiş, axşamını küçələrində gəzməmişəm. Çünki mənim doğulduğum torpaqla arama illər əvvəl müharibə, işğal və məcburi köçkünlük girdi. Bəlkə də buna görə Ağdam mənim üçün bir az fərqli şəhərdir. Mənim xatirələrimdə onun küçələri yoxdur, amma adı var. Uşaqlıq şəkillərimdə görünmür, amma kimliyimin bir parçasıdır. Mən orada yaşamasam da, hər dəfə Ağdam haqqında danışanda elə bilirəm nədənsə yarımçıq qalmış bir həyatımı xatırlayıram.

Ağdam sadəcə xəritədə göstərilən bir rayon, inzibati ərazi və coğrafi ad deyil. Bu şəhərin özünəməxsus tarixi, mədəniyyəti, insanları və adət-ənənələri var. Qarabağın tanınmış məskənlərindən olan Ağdam XVIII əsrdən etibarən Qarabağ xanlığı dövrünün tarixi ilə sıx bağlıdır. Şəhərin inkişafında Qarabağ xanlığının qurucusu Pənahəli xanın dövrü xüsusi yer tutur. Ağdamın adı çəkiləndə göz önünə gələn ilk məkanlardan biri İmarət kompleksidir. Bura yalnız tarixi tikililərin yerləşdiyi ərazi deyil, Qarabağ xanlarının tarixini yaşadan məkandır. Cümə məscidi isə şəhərin mənəvi həyatının mühüm rəmzlərindən biri olub. Bir vaxtlar Ağdamın küçələrində həyat qaynayır, bazarlarında alış-veriş edilir, məktəblərində uşaqların səsi eşidilir, evlərində qonaq süfrəsi açılırdı. Ağdamın özünəməxsusluğu onun insanlarında da yaşayırdı. Bu şəhər zəhmətkeşliyi, qonaqpərvərliyi, mədəni həyatı ilə tanınırdı. Burada doğulanların hər birinin bir Ağdamı vardı. Kiminin ata ocağı, kiminin məktəbi, kiminin uşaqlıq küçəsi, kimininsə heç vaxt unuda bilmədiyi həyatı. Mənim Ağdamım isə danışılan xatirələrdə, ailə söhbətlərində, doğum yerim yazılan sənədlərdə yaşayırdı.

1993-cü il iyulun 23-ü Ağdamın taleyində ən ağır tarixlərdən biri oldu. Birinci Qarabağ müharibəsi zamanı şəhər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. İşğal nəticəsində şəhər dağıdılıb yerləyeksan edildi. Şəhər 27 il sükuta qərq oldu. Ağdamlılar illərlə qurduqları evlərini, xatirələrini geridə qoyaraq doğma yurdlarından didərgin düşdülər. Həmin gün təkcə bir şəhər itirilmədi, insanların həyat planları yarımçıq qaldı. Bir ana övladının doğulduğu evi tərk etdi, bir ata illərlə zəhmət çəkdiyi həyətindən ayrıldı, bir uşaq oyuncağını götürməyə belə macal tapmadan başqa bir ünvana yollandı. Ağdamın taleyi minlərlə insanın taleyinə çevrildi. İşğal illərində şəhərin böyük hissəsi dağıdıldı, evlər, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları xarabalığa çevrildi.

Bir vaxtlar çörək qoxusu ilə tanınan Ağdamın Çörək muzeyi də dağıntılardan xilas ola bilmədi. 1983-cü ildə açılan, 1500-dən çox eksponatı olan bu muzey 1992-ci ildə artilleriya atəşi nəticəsində məhv edildi. Bəzən düşünürəm, bir şəhərin Çörək muzeyini dağıtmaq nə deməkdir? Axı çörək insanın süfrəsidir, zəhmətidir, bərəkətidir. O muzeydə təkcə taxıl nümunələri və qədim əşyalar yox, bir xalqın əməyi, torpağa bağlılığı, həyat tərzi yaşayırdı. Ağdamın dağıdılmış küçələri ilə yanaşı, orada yaşayan insanların xatirələri də yaralanmışdı. Mən o illərdə çox az şeyləri xatırlasam da, Ağdam haqqında ailə üzvlərimdən və ya ümumən dinləyəndə bir şeyi anlayıram ki, bəzən insanın yaşamadığı bir ağrı da onun taleyinə çevrilə bilir.

İllərlə davam edən həsrətin, gözləntinin, ümidin və mübarizənin içərisində 2020-ci ildə Azərbaycan tarixinin yeni səhifəsi açıldı. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi 44 gün davam etdi. Rəşadətli Azərbaycan Ordusunun peşəkarcasına həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində bir sıra ərazilər işğaldan azad edildi. Noyabrın 8-də Şuşanın azad edilməsi müharibənin gedişində mühüm dönüş nöqtəsi oldu. 10 noyabr 2020-ci ildə üçtərəfli Bəyanat imzalandı. Bu Bəyanata əsasən, Ağdam rayonunun noyabrın 20-dək Azərbaycana qaytarılması nəzərdə tutulurdu. Və nəhayət, 20 noyabr... Bu tarix Ağdamın taleyində yeni bir başlanğıca çevrildi. Ağdam rayonu hərbi əməliyyat aparılmadan Azərbaycana qaytarıldı. 27 ildən artıq davam edən işğal sona çatdı. Qalib Sərkərdə kimi 2020-ci il noyabrın 23-də Ağdama səfər edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 27 ildən sonra şəhərdə Azərbaycan bayrağını ucaltdı. Dövlət başçısı Məkkədən gətirdiyi Qurani-Kərimi Ağdam məscidinə bağışladı.



Ağdamın küçələrinə qayıdan ilk addımların səsini təsəvvür edirəm. Bəlkə də bir insan doğulduğu evin yanında dayanıb uzun müddət heç nə demədi. Bəlkə kimsə uşaqlığını xatırladı, kimsə atasının əkdiyi ağacı axtardı, kimsə də illərlə yalnız yuxularında gördüyü küçəyə baxdı... Çünki doğma yurda qayıtmaq həmişə sevinməkdən ibarət olmur. Bəzən qayıtdığın yerdə səni qarşılamağa evin olmur, həyətində uşaqlığından əsər qalmır. Amma torpaq səni yenə tanıyır. Sən də onu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdama növbəti səfəri isə 2021-ci ildə 28 May - Dövlət Müstəqilliyi Gününə təsadüf etdi. Yeni Ağdamın təməl daşını qoyarkən Müzəffər Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi "Biz elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun" fikri düşmənin 27 il ərzində xarabalığa çevirdiyi Qarabağın giriş qapısı sayılan məkanın çox qısa zamanda əvvəlkindən də gözəl rayona çevriləcəyinin nidası oldu. Bu gün Ağdamın tarixində yeni mərhələ başlayıb. Ağdam müasir, "yaşıl enerji" və ağıllı şəhər Konsepsiyası əsasında yenidən qurulur. Dağıdılmış şəhərin yenidən qurulması, infrastrukturun yaradılması, tarixi abidələrin bərpası istiqamətində işlər aparılır. Bir zamanlar işğalın simvoluna çevrilən Cümə məscidi bərpa olunub. Pənahəli xanın İmarət kompleksində bərpa və yenidənqurma işləri həyata keçirilib. Bu gün həmin tarixi məkan ziyarətçilər üçün açıqdır.

Uzun illər adını eşitdiyim, haqqında danışılanları dinlədiyim, demək olar xatırlamadığım şəhərə, Ağdama getdim... Bu dəfə xəyalımda yox, gerçəkdə gördüm. Hər tərəfdə yenidən həyata qayıtmaq istəyən bir şəhərin nəfəsi duyulurdu. Ağdam Cümə məscidinə də getdim. Bəlkə də həmin an səfərimin ən mənalı məqamı idi. Məsciddə doğma torpağım üçün, bu torpağın insanları üçün, bir daha belə ağrılar yaşanmaması üçün dualar etdim. O an bir daha anladım ki, Ağdam mənim üçün sadəcə doğum şəhadətnaməmdə yazılan bir ünvan deyil. Bu şəhərlə aramda yaşanmamış, amma heç vaxt itməmiş bir doğmalıq var.

Mən istəyirəm Ağdamın küçələrində uşaqların səsi eşidilsin, məktəblərdə dərs zəngi çalınsın, həyətlərdə ağaclar böyüsün, pəncərələrdən işıq süzülsün. Açılan qapılardan keçmişin dağıntıları yox, gələcəyin daha gözəl ümidləri görünsün. Artıq işğaldan, müharibədən və dağıntılardan yox, onun musiqisindən, mədəniyyətindən, gözəl təbiətindən, yeni həyatından danışılsın. Çünki Ağdamın tarixi 1993-cü ildə başlamayıb və 2020-ci ildə də bitməyib. Bu şəhərin keçmişi də var bu günü də, gələcəyi də. Ağdam artıq keçmişdə itirilən bir şəhər deyil. O, gec də olsa yolunu tapıb qayıtdığımız doğma ünvandır. Yenidənqurma işlərindən sonra Ağdam Qarabağın ən böyük şəhəri olacaq. Keçmişlə gələcəyin, qədimliklə müasirliyin birləşəcəyi Ağdam həm də Azərbaycanın 4-cü ən böyük yaşayış məskəninə çevriləcək. Bütün ağdamlılar kimi, mən də bu ünvanın gələcəyinin yalnız gözəlliklərdən, xoşbəxtlikdən və sülhdən ibarət olmasını istəyirəm.

Pərvanə İMAMƏLİYEVA
"Azərbaycan Ordusu"

Qafqazın Xirosiması adlandırılan, Qarabağımızın uzaq, yaxın tarixi keçmişini özündə yaşadan, dağılıb viran qoyulan Ağdam şəhəri erməni vəhşiliyinin qurbanı və şahididir. "Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentirə çevrilib. Bu mənada "Ağdam" - günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir.

Ağdam rayonu 1930-cu ildə yaradılıb. Ərazisi 1094 kvadrat kilometr olan rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır. Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətə malik torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir.

Rayonun ərazisində XX əsrin 50-ci illərindən başlayaraq aparılan arxeoloji tədqiqat işləri zamanı məlum olmuşdur ki, Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir.

Arxeoloji tədqiqatlar nəticəsində məlum oldu ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yəni, Eneolit dövründə (e.ə. VI-IV minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə bələd olmuşlar. Buradan tapılan taxıl və üzüm dənələri bir daha sübut etmişdir ki, yerli əhali oturaq həyat keçirmiş və yüksək əkinçilik mədəniyyətinə malik olmuşdur.

Arxeoloqlar Üzərliktəpədə apardıqları tədqiqatlar nəticəsində tapılan maddi-mədəniyyət qalıqlarına əsaslanaraq qeyd edirlər ki, bura Qafqazda ilk şəhər tipli yaşayış məskəni və Zaqafqaziyada (Cənubi Qafqazda) ən zəngin tarixi abidələri olan ərazilərdən biri imiş.

Qafqazın qədim yaşayış məskənlərindən biri olan Ağdam uğrunda 42 gün davam edən döyüş 1993-cü ilin 23 iyul tarixində ərazisinin 73 faizinin işğalı ilə bitdi. Ağdamın 882 kvadrat kilometri işğala məruz qaldı, rayon mərkəzi ilə birgə 90 kəndi erməni vandalları tərəfindən dağıdıldı. O zəngin tarixi şəhərdə daş daş üstündə qalmadı. İşğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşamağa məcbur oldu. Rayonun 38 kolxozu, 12 sənaye obyekti, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçdi. Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid oldu, minlərlə insan yaralandı, əhali öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşdı.

1993-cü ilin 29 iyul tarixində BMT-nin Təhlükəsizlik Şurası 853 saylı qətnaməni qəbul etdi. Orada da "işğalçı qüvvələrin Ağdam rayonu və digər işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeydşərtsiz çıxarılması" tələb edildi. ATƏT-in Minsk qrupunun 9 ölkəsi adından da bu "hücum qətiyyətlə pislənmiş", "işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasına çağırış etmişdir". Lakin Ermənistan tərəfi beynəlxalq qərarlara tabe olmaqdan yayındı. Dünya illərlə ölkəsinin 20 faizini itirən, 1 milyondan çox qaçqını, köçkünü olan Azərbaycanın haqq səsini eşitməzdən gəldi...

İşğalçı Ermənistan Cenevrə Konvensiyasına əsasən üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllər törətdi. Ümumiyyətlə, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi Ermənistanın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirir.

Vətən müharibəsində əldə etdiyimiz Qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisi Azərbaycana təhvil verildi. Bununla da əsaslı şəkildə insanlarımızın həlak olmasının qarşısı alındı.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə 2020-ci il noyabrın 26-da medal təsis edildi. Ağdam uğrunda gedən döyüşlərdə göstərdikləri rəşadətə görə 5790 hərbi qulluqçu "Ağdamın azad olunmasına görə" medalına layiq görüldü.

Dövlət başçısının 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olundu. Qeyd olunan Sərəncama əsasən, 20 noyabr Ağdam Şəhəri Günü kimi tarixləşdi.

Ermənistan qəsdən Ağdam kimi tarixi şəhərimizi - onun mədəni və dini abidələrini vandalizmə məruz qoydu, təhqir və qarət etdi.

2021-ci ilin 28 may tarixində Azərbaycan ictimaiyyətinə təqdim olunmuş Baş Plan əsasında Ağdam bərpa olunur. Şəhərin özündə 5 məhəllə nəzərdə tutulub. Ağdam şəhərinə ilk köç artıq reallaşmaq üzrədir. Onu da qeyd edək ki, Ağdamın Kəngərli, Xıdırlı, Sarıcalı kəndlərinə ilk köç - qayıdış başlayıb. Xıdırlı kəndinə ilk köç ötən ilin iyulunda, dekabrın 26-da isə 64 ailə yola salınıb və beləliklə, növbəti köç karvanı həyata keçirilib. Köç prosesi bu gün də davam etdirilir. Kəngərli və Sarıcalı kəndlərinə köç və açılış prosesləri də 2025-ci ilin ortalarından etibarən gerçəkləşib. Qafqazın Xirosiması adlandırılan uzaq və yaxın tarixi keçmişimizin izlərini özündə ehtiva edib qoruyan Ağdam yenidən qurulur, dirçəlir...

Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"

Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

Mövzu: Azərbaycan-Türkiyə qardaşlığı: "Bir millət, iki dövlət".

Suallar:

1. Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır.

2. Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı.

Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır

Türkiyə Azərbaycanın haqq işinə həmişə dəstək verən ölkələrdəndir. İstər Vətən müharibəsində, istər Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsində, istərsə də Qarabağ və Şərqi Zəngəzurda gedən quruculuq prosesində Türkiyənin dəstəyi həmişə hiss edilib. İşğala məruz qalmış ərazilərimizdəki hər iki beynəlxalq hava limanının açılışında, Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin təməlqoyma mərasimində Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı və eləcə də müttəfiqlik bəyannaməsinin Şuşada imzalanması da bunu təsdiq edir.

Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Bu əlaqələri şərtləndirən amillər sırasında ortaq kökümüzün, dilimizin, dil birliyimizin, oxşar mədəniyyətimizin və adət-ənənələrimizin olmasıdır. Əsrlər boyu bu dövlətlər həmişə birbirinə dəstək olmuş, sıx əməkdaşlıq etmiş, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrikcəsinə dediyi kimi "bir millət, iki dövlət" olmuşlar. Təsadüfi deyildir ki, Türkiyə dövlətinin dahi lideri Mustafa Kamal Atatürk Azərbaycanın kədərini özlərinin kədəri, sevincini isə öz sevinci hesab etmişdir. Türk dünyasının bu iki lideri öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir mesaj qoymuşlar: "Türkiyə Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır".

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də müstəqilliyini elan etməsi ilə başlayan Azərbaycan-Türkiyə siyasi əlaqələri Azərbaycan dövlətinin müstəqilliyini bərpa etdikdən sonra Türkiyə dövlətinin ilk dövlət olaraq Azərbaycanın müstəqilliyini tanıması ilə bərpa olunmuşdur. İki dövlət arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə qurulmuş, 1992-ci ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi açılmış, 1993-cü ilin yanvarında İstanbul, 2004-cü ilin aprelində isə Qars şəhərlərində Baş konsulluqları təsis edilmişdir. Eyni zamanda, Türkiyənin Bakı şəhərində səfirliyi, Naxçıvan və Gəncə şəhərlərində Baş konsulluqları fəaliyyət göstərməkdədir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə 1992-ci ildə blokada şəraitində yaşayan qədim diyarın qardaş ölkə ilə 11 kilometrlik hissəsində, Araz çayı üzərində "Ümid" körpüsü adlandırılan keçid məntəqəsini istifadəyə verməklə iqtisadi, mədəni əlaqələrin yaradılmasını təmin etmişdi. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərmişdir. Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi, elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etmişdir.

"Bir millət, iki dövlət" məşhur deyimini söyləyən Ulu Öndər Heydər Əliyevin yaratdığı qardaşlıq əlaqələri bu gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Məhz belə misilsiz fəaliyyətin nəticəsidir ki, hazırda Azərbaycan ilə Türkiyə Avrasiya kontinentinin Cənubi Qafqaz və Qara dəniz kimi strateji əhəmiyyətli regionlarının geoiqtisadi mənzərəsinin müsbətə doğru dəyişdirilməsinə nail olmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyinin güclənməsinə də mühüm dəstək vermişlər. Belə ki, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi və Avropa ilə Asiya arasında Zəngəzur dəhlizi vasitəsilə əsas tranzit xəttini yaratmaqla, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhvəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Birgə əməkdaşlıq və təşəbbüslə inşası davam etdirilən, artıq XXI Əsrin layihəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması, İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu, Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da Türkiyə ilə Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığın növbəti məhsuludur.

Son 32 il ərzində Azərbaycan və Türkiyə dövlətləri arasında əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş, 15 sentyabr 2010-cu ildə İstanbulda, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması və 15 iyun 2021-ci ildə Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhfəsini vermişdir. Şuşa Bəyannaməsi imzalanarkən dövlət başçısı İlham Əliyev Qars müqaviləsini yada salaraq qeyd etmişdir: "...Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz dəhlizinin Türkiyə, Azərbaycan dünya üçün önəmli göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır...".

Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz BMT başda olmaqla bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir.

Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı

Müstəqilliyimizin ilk günündən etibarən Azərbaycan Respublikasının Qarabağ başda olmaqla, işğal və ərazi bütövlüyü problemlərinin yaşadığını, regional təhlükəsizlik ehtiyacını diqqətə alan qardaş Türkiyə dövləti Bakının hərbi baxımdan güclənməsinə çalışmış, bunu Türkiyənin də regionda güclənməsi olaraq görmüş və mümkün dəstəyi əsirgəməmişdir. İki qardaş ölkənin ordularının əməkdaşlığı yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, eyni zamanda, bölgədə sabitlik və təhlükəsizliyin təmini, ortaq güc formalaşdırmaq yoluyla milli problemlərin həll edilməsi baxımından da mühüm əhəmiyyət kəsb etmişdir.

İki qardaş ölkə ordularının əməkdaşlığı yönümündə ilk hüquqi addım 11 avqust 1992-ci ildə imzalanan "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilənin bağlanmasıyla başlanmışdır. Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində yüzlərlə azərbaycanlı zabit təhsil alaraq Azərbaycan Ordusunun güclənməsinə öz töhfəsini vermişdir.

Azərbaycan Ordusunun zabit heyətinin ehtiyacını qarşılayan ən önəmli təhsil müəssisələrindən olan Heydər Əliyev adına Hərbi İnstitut qardaş ölkənin aktiv iştirakı və köməyi ilə NATO standartlarında təhsil verən təhsil ocağı səviyyəsinə gətirilib çatdırılmışdır. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə və digər ölkələrə göndərilirlər. Eyni zamanda, indiyə qədər Azərbaycan-Türkiyə Müdafiə nazirlikləri arasında təmənnasız hərbi yardım, müdafiə sənayesi, təlim-tədris və maddi-texniki təminat sahələrində əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır. Hərbi sənayesi ilə qüvvətlənən qardaş ölkənin müxtəlif silah sistemlərinin Azərbaycanla birlikdə istehsalı da qardaşlıq ittifaqının müdafiə sənayesində də müştərək layihələr həyata keçirərək ordularının gücünə güc qatacağının bariz nümunəsidir.

Qərblə Şərqin qovuşduğu nəqliyyat dəhlizləri, neft-qaz boru xətləri, yollar baxımından olduqca strateji bir coğrafiyada yerləşən Azərbaycan, Avroatlantik məkanın təhlükəsizliyin təmini baxımından da önəmli olduğu üçün Azərbaycan hərbçiləri NATO-nun "Sülh üçün Əməkdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarına daxil edilmiş və bu fəaliyyətlər də Türkiyə dövləti vasitəsiylə həyata keçirilmişdir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanmış tarixi Şuşa Bəyannaməsini iki qardaş ölkənin ittifaq müqaviləsi kimi də qəbul etmək olar. Müqavilənin müddəalarının birinə görə, ölkələrdən hər hansı birinin müstəqilliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid, yaxud təcavüz edildiyi tədqirdə silahlı qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil ediləcəkdir.

İki qardaş ölkənin ordularının müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən yerdən və havadan zərbələr endirməklə düşmən hədəflərinin məhv edilməsi tapşırıqlarının yerinə yetirməsi ilə bağlı zirehli texnika, artilleriya qurğuları, hərbi aviasiya, hava hücumundan müdafiə qüvvələrini də cəlb etməklə həyata keçirilən çoxsaylı birgə təlimlər də birlik və əməkdaşlığın önəmli istiqamətlərdən birini təşkil etməkdədir. Bu təlimlərdə qazanılan təcrübənin məntiqi nəticəsi idi ki, Azərbaycan Ordusu bəşər tarixinin ən müasir müharibəsini aparmaqla, Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini azad edərək respublikamızın ərazi bütövlüyünü təmin etdi. Azərbaycan Vətən müharibəsində döyüşmək bacarığını, supermüasir ordusunu, ən son hərbi texnika üzrə təlim keçmiş yeni nəsil mütəxəssislərini, mühəndislərini, zabitlərini, elit xüsusi təyinatlı hərbçilərini nümayiş etdirdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi: "Bu yeni nəsil müharibə üslubudur, hansı ki, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbiçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir".

2024-cü il ərzində Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında həm Azərbaycanda, həm də Türkiyədə müxtəlif təyinatlı birgə təlimlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəminin olduğunu, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün böyük əhəmiyyəti və faydası olduğunu bildirmişdir.

Vətən müharibəsi zamanı Azərbaycan-Türkiyə əlaqələrini daha da möhkəmləndirildi. 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradında Azərbaycan və Türkiyə əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Azərbaycan xalqı küçələrə axışaraq böyük sevinc hissi ilə Azərbaycan və Türkiyə əsgərlərini salamladı. Bu tarixi gündə Azərbaycanın bütün şəhərləri Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının sammitindəki çıxış zamanı "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam" deməsi, dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərdən birinə - erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir" bəyanatı, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə Qarabağda antiterror əməliyyatı öncəsi Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışında "Tək millət, iki dövlət" şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünə dair atdığı addımları dəstəkləyirik" deməsi və Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində "Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdırlarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdirlərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq" deməklə konkret mövqe ortaya qoyması Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunəsidir.

Bir sözlə, Azərbaycan və Türkiyə xalqlarının qardaşlığı daim möhkəmlənir, əlaqələri dayanmadan inkişaf edir və hər iki ölkə regionda təhlükəsizliyin qarantına çevrilir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm də mədəni əlaqələr bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır.

İdeoloji Təminat İdarəsi

Gənc zabitlərimiz

Gənc zabitin böyük amalı

Azərbaycan Ordusunda zabitlərin üzərinə düşən vəzifələr hərbi xidmətin təşkili, şəxsi heyətin hazırlığı və qarşıya qoyulan tapşırıqların icrası baxımından mühüm əhəmiyyət kəsb edir. Hərbi hissələrdə xidmət edən zabitlər bu məsuliyyəti dərk edərək gündəlik fəaliyyətlərini yüksək səviyyədə qurmağa çalışırlar. Onların xidməti fəaliyyəti sənədləşmə işləri və tapşırıqların bölüşdürülməsi ilə məhdudlaşmır. Şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçuların bilik və bacarıqlarının inkişaf etdirilməsi də zabitlərin əsas vəzifələrindəndir. Zabit olmaq, hər şeydən əvvəl, Vətən qarşısında götürülən öhdəliyə sadiqlik və üzərinə düşən məsuliyyətin layiqincə yerinə yetirilməsidir. Xidmət müddətində qarşıya çıxan müxtəlif vəziyyətlər düzgün qərar qəbul etməyi, çevik davranmağı və hadisələri obyektiv qiymətləndirməyi tələb edir. Bu keyfiyyətlərin formalaşmasında hərbi biliklərlə yanaşı, zabitin şəxsi xüsusiyyətləri də mühüm rol oynayır. Tabeliyində olan şəxsi heyətlə sağlam münasibət qurmaq, onların qayğı və ehtiyaclarını diqqətdə saxlamaq rəhbərlik fəaliyyətinin vacib şərtlərindəndir. Azərbaycan Ordusunda hər bir hərbi qulluqçunun hazırlıq səviyyəsini yaxından bilmək və onun peşəkar inkişafına kömək göstərmək komandir məsuliyyətinin əsas göstəricilərindəndir. Təlimlərdə əldə edilən təcrübənin gündəlik xidmətdə tətbiqi isə şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsinə imkan yaradır. Zabitin davranışı, xidmətə münasibəti və hərbi intizama riayət etməsi onun rəhbərlik etdiyi şəxsi heyət üçün nümunə olmalıdır. Çünki şəxsi nümunə ilə göstərilən tələbkarlıq və məsuliyyət verilən tapşırıqların icrasına da müsbət təsir göstərir. Hərbi xidmətin bütün sahələrində diqqətli və prinsipial yanaşma yüksək nəticələrin əldə olunmasına zəmin yaradır. Azərbaycan Ordusunda öz peşəkarlığı, işgüzarlığı və xidmətə məsuliyyətli münasibəti ilə fərqlənən zabitlərimizdən biri də "N" hərbi hissəsində xidmət edən baş leytenant Q.Qəhrəmanlıdır.



Baş leytenant Q.Qəhrəmanlı 1998-ci il noyabrın 15-də Ağsu rayonunun Cəlayir kəndində anadan olub. 2006-cı ildə Cəlayir kənd orta məktəbinin birinci sinfinə gedib. 2014-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub.

Hələ məktəb illərindən hərbçi olmaq arzusu ilə yaşayan zabit təhsil yolunun başlanğıcı və sonrakı mərhələləri barədə söhbət zamanı dedi: "Hərbi sahəyə məktəb illərindən marağım olduğundan 9-cu sinfi bitirdikdən sonra sənədlərimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim etdim. Sənədlərim qəbul olunduqdan sonra hərbi-tibbi komissiyadan keçdim. Daha sonra imtahanlarda keçid balını toplayaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldum. Üç il təhsil aldım və özümə çoxlu dost qazandım. Komandir və müəllim heyəti çox savadlı və peşəkar idi. Burada aldığım təhsil və keçirdiyim illər mənim üçün unudulmazdır. 2017-ci ildə Hərbi liseyi müvəffəqiyyətlə bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (indiki Heydər Əliyev adına Hərbi İnstitut) "Aviasiya" fakültəsinə daxil oldum. 2022-ci ildə həmin institutu bitirərək "leytenant" hərbi rütbəsinə layiq görüldüm".

Ali hərbi təhsilini başa vuraraq zabit rütbəsi alan Q.Qəhrəmanlı üçün Azərbaycan Ordusunda xidmətə başlamaq həyatının məsuliyyətli mərhələlərindən biri idi. Hərbi liseydə və institutda qazandığı nəzəri bilikləri xidmət zamanı tətbiq etmək, peşəkar vərdişlərini inkişaf etdirmək onun əsas məqsədlərindən oldu. Gənc zabit yaxşı anlayırdı ki, komandir olmaq yalnız tapşırıq vermək deyil, həm də şəxsi heyətin etimadını qazanmaq, çətin anlarda düzgün mövqe nümayiş etdirmək və öz davranışı ilə nümunə göstərməkdir. Bu prinsipləri rəhbər tutan baş leytenant Q.Qəhrəmanlı xidmət müddətində qazandığı təcrübə və hərbi peşəyə münasibəti barədə fikirlərini bizimlə bölüşdü: "Azərbaycan Ordusunda xidmət etmək mənim üçün böyük şərəf və qürur mənbəyidir. Hərbi formanı daşımaq, dövlətimizin və xalqımızın təhlükəsizliyinin keşiyində dayanmaq böyük məsuliyyət tələb edir. Xüsusilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər hər birimiz üçün qürurverici hadisədir. Həmin Zəfər xalqımızın birliyinin, ordumuzun gücünün, əsgər və zabitlərimizin qəhrəmanlığının bariz nümunəsidir. Bu gün qalib ordunun zabiti kimi xidmət etmək üzərimə düşən məsuliyyəti daha da artırır. Hərbi təhsil aldığım illərdə komandirlərimizin və müəllimlərimizin bizə verdiyi bilik və təcrübə nümunəvi zabit kimi formalaşmağımda mühüm rol oynayıb. Onların öyrətdikləri bilikləri gündəlik xidmətimdə tətbiq etməyə çalışıram. Hesab edirəm ki, zabit daim öyrənməli, öz bilik və bacarıqlarını təkmilləşdirməlidir. Mən də üzərimə düşən vəzifələri daha yüksək səviyyədə yerinə yetirmək, gələcəkdə daha məsuliyyətli və peşəkar zabit olmaq üçün çalışıram. Vətənə sevgi və sədaqət hər bir hərbi qulluqçunun fəaliyyətinin əsasını təşkil etməlidir. Vətənpərvərlik yalnız sözlə deyil, gündəlik xidmət və əməli fəaliyyətlə sübut olunmalıdır. Verilən hər bir tapşırığın vaxtında, dəqiq və qeyd-şərtsiz yerinə yetirilməsini özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Çünki hərbi xidmətdə nizam-intizam, məsuliyyət və dəqiqlik uğurun əsas şərtlərindəndir. Komandir kimi şəxsi heyətə nümunə olmağa, onlarla öz bilik və təcrübəmi bölüşməyə xüsusi diqqət yetirirəm. Əsas məqsədim Azərbaycan Ordusunun zabiti kimi Vətənimə layiqincə xidmət etmək, komandirlərimin etimadını doğrultmaq və mənə həvalə olunan bütün vəzifələrin öhdəsindən layiqincə gəlməkdir".

Azərbaycan Ordusunda xidmətini yüksək məsuliyyətlə yerinə yetirən zabitlərimizin fəaliyyəti ordumuzun qarşısında duran vəzifələrin uğurla icrasına mühüm töhfə verir. Onların peşəkar yanaşması, tələbkarlığı və şəxsi nümunəsi hərbi kollektivlərdə sağlam xidmət mühitinin formalaşmasına, gənc hərbi qulluqçuların bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərir. Zabitin qazandığı təcrübəni şəxsi heyətlə həvəslə bölüşməsi, əsgərlərin hazırlığına diqqət yetirməsi və qarşıya qoyulan məqsədlərə məsuliyyətlə yanaşması hərbi xidmətin keyfiyyətini müəyyən edən amillərdəndir. Bu baxımdan baş leytenant Q.Qəhrəmanlının xidmət yolu da gənc zabitlərin peşəkar formalaşmasının, hərbi biliklərə yiyələnməsinin və Vətənə sədaqətlə xidmətə bağlılığının nümunəsidir. Seçdiyi peşəyə hörmətlə yanaşan zabit bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək, komandirlərinin etimadını doğrultmaq və Azərbaycan Ordusunun inkişafına öz töhfəsini vermək əzmindədir. Belə zabitlərin əzmkarlığı, məsuliyyətli xidməti və Vətənə bağlılığı ordumuzun gücünü şərtləndirən mühüm amillərdəndir.

Kapitan
Əli ABIYEV
"Azərbaycan Ordusu"

Xəbərlər: hadisələr, faktlar



İslamabadda Türkiyə-Pakistan hərbi əməkdaşlığı müzakirə edilib

Türkiyə Hərbi Hava Qüvvələri Komandanı general Rafet Dalkıran Pakistana səfər edib.

Üçgünlük səfər proqramı çərçivəsində general Dalkıran Pakistanın Quru Qoşunları komandanı və Müdafiə Qüvvələrinin rəisi, feldmarşal Seyid Asim Munir və Pakistan Hərbi Hava Qüvvələri Komandanı general Zahir Əhməd Baber Sidhu ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə Türkiyə-Pakistan hərbi əməkdaşlığı ətraflı müzakirə edilib.

Türkiyə Hərbi Hava Qüvvələri Komandanı, həmçinin Pakistan Milli Aviasiya Elm və Texnologiya Parkını və Pakistan Aviasiya Kompleksini ziyarət edib.

O, həmçinin Risalpurdakı Əsgər Xan Pakistan Hərbi Hava Qüvvələri Akademiyasındakı Mükəmməllik Mərkəzini ziyarət edərək, orada təlim keçən Türkiyə Hərbi Hava Qüvvələri heyəti ilə görüşüb.

Misir və Fransa Aralıq dənizində birgə hərbi təlimlərə başlayıb



Misir və Fransa Aralıq dənizində "Cleopatre 2026" adlı birgə hərbi-dəniz təliminə başlayıb. Misir Silahlı Qüvvələrinin yaydığı məlumata görə, bir neçə gün davam edəcək manevrlər Misirin ərazi sularında, Şimal Donanmasının məsuliyyət zonasında keçirilir.

Təlimdə iki ölkənin bir sıra hərbi-dəniz qüvvələri iştirak edir. Manevrlərin əsas məqsədi dəniz təhdidlərinə və pilotsuz uçuş aparatlarına qarşı mübarizə imkanlarını gücləndirmək, əməliyyat koordinasiyasını təkmilləşdirmək və hərbi təcrübə mübadiləsini genişləndirməkdir.


İlk mərhələdə iştirakçı qüvvələr arasında nəzəri və praktiki məşğələlər keçirilib. Təlim proqramına birgə dəniz əməliyyatlarının planlaşdırılması və həyata keçirilməsi, müxtəlif dəniz və hava təhdidlərinə qarşı fəaliyyət daxildir.

Misir ordusunun bildirdiyinə görə, "Cleopatre 2026" iki ölkə arasında hərbi əməkdaşlığın və peşəkar təcrübə mübadiləsinin gücləndirilməsi istiqamətində növbəti addımdır.

Misir və Fransa hərbi-dəniz qüvvələri 2025-ci ilin dekabrında Fransanın ərazi sularında, 2024-cü ilin dekabrında isə Misirin Aralıq dənizindəki Şimal Donanmasının məsuliyyət zonasında oxşar təlimlər keçiriblər.

AZƏRTAC-ın materialları əsasında

İdman



Azərbaycan parataekvondoçusu dünya çempionu olub

Cənubi Koreyanın Muju şəhərində parataekvondo üzrə dünya çempionatı start götürüb.

K44 kateqoriyasında 58 kiloqram çəki dərəcəsində mübarizə aparan Sabir Zeynalov 1/8 finalda hindistanlı Mohit Sinq, 1/4 finalda monqolustanlı Temirbek Kaulyet, yarımfinalda isə taypeyli Xiao Xianq-Ven üzərində qələbə qazanaraq finala yüksəlib.

20 yaşlı paralimpiyaçı finalda son Paralimpiya çempionu, israilli Asaf Yasuru məğlub edərək dünya çempionu tituluna yiyələnib.

Azərbaycan ağırlıqqaldıranı Şanxay Əməkdaşlıq Təşkilatı Açıq Kubokunda 3-cü yeri tutub



Azərbaycan ağırlıqqaldıranı Fuad Həsənov Rusiyada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatı Açıq Kuboku turnirində bürünc medal qazanıb.

70 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı birdən qaldırma hərəkətində 130 kiloqram ağırlığı ram edib.

Təmsilçimiz təkanla qaldırmada 160 kiloqram nəticə göstərib. İki hərəkətin cəmində 290 kiloqram nəticəyə imza atan atlet yekunda üçüncü olub.



Azərbaycan cüdo üzrə U-23 dünya çempionatında ilk medalını qazanıb

Azərbaycan cüdoçusu Məhəmməd Musayev Özbəkistanın paytaxtı Daşkənddə keçirilən U-23 dünya çempionatında bürünc medal qazanıb.

66 kiloqram çəki dərəcəsində çıxış edən idmançı 3-cü yer uğrunda qarşılaşmada rusiyalı İslam Sultiqova qalib gəlib.

Noyabrın 19-da mübarizəyə qoşulan digər cüdoçularımız Nərgiz Əhmədova (48 kiloqram), Aysun Məmmədova (52 kiloqram), Xədicə Qədəşova, Vüsalə Hacıyeva (hər ikisi 57 kiloqram) və Ayxan Mirzəzadə (60 kiloqram) isə yarışı mükafatsız başa vurublar.

Qeyd edək ki, dünya çempionatına noyabrın 22-də yekun vurulacaq.

AZƏRTAC-ın materialları əsasında

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Emil MURADLI

Lisenziya № 361
Sifariş № 986
Nüsxə 3653